

*Anar MƏMMDOV,*
*fəlsəfə doktoru*

# YUSİF DİRİLİNİN KİTABLARI













Mənim əzizlərim!

Dünən əziz dostum, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, ətraf mühit üzrə yorulmaz tədqiqatçı, tarix üzrə fəlsəfə doktoru Yusif Dirili ilə (MahmudovYusif Məhəmməd oğlu ilə) görüşdüm və o mənə son vaxtlarda işıq üzü görən 3 kitabını hədiyyə etdi.

Kiatablardan biri "NOVRUZ: TARİX VƏ ADƏT-ƏNƏNƏLƏRİNƏ YENI BAXIŞ" adlanır. Əski çağlardan başlayaraq günümüzə qədər xalqımızın tarixi taleyində rol oynayan Novruz bayramı və ilin Axır Çərşənbələrindən bəhs edən bu monoqrafik topluda müəllif tərəfindən Novruzun yaranma tarixi və adət-nənələri ilə bağlı axtarışlar aparılmış, qarşıya qoyulan məqsədə uyğun faktlar toplanmış, milli və elmi yöndən təhlil olunaraq, maraqlı nəticələr əldə edilmişdir. Elmi-publisistik yöndə qələmə alınmış bu əsərdə Novruzun türk xalqlarının ortaq yaz bayramı olduğu qeyd edilir və konkret misallar gətirilir. Kitaba müəllifin Novruz və Axır Çərşənbə ilə bağlı illərlə apardığı müşahidə və araşdırmalar zamanı ortaya çıxan bəzi maraqlı məlumatlar, o cümlədən Axır Çərşənbənin Torpaq, yoxsa Yel Çərşənbə olması barədə fikirlər daxil edilmişdir.

Kitabın elmi redaktoru əziz dostumuz, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitunun "Mətbuat tarixi və publisistika" şöbəsinin müdiri, filologiya elmlər doktoru, professor Vüqar Əhməd, rəyçiləri AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitunun "Atropatena - Albaniya (Qafqaz) tarixi" şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Ramil Ağayev və AMEA Fəlsəfə və Sosiologiya İnstitunun "Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi" şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərlidir.

Görkəmli şair, yazıçı-publisist, Prezident təqaüdçüsü, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələflinin yaradıcılığı əsasında yazılan "ƏLİ RZA XƏLƏFLİ YARADICILIĞIDA EKOLOJİ MƏSƏLƏLƏR" adlanan növbəti monoqrafiyada Ə.Xələflinin bayatıları, nəsr əsərləri, o cümlədən publisistik qeydləri, şeir və poemaları tədqiqata cəlb olunmuş, ekoloji baxımdan hərtərəfli təhlil edilmiş, mövcud materiallarla paralellər aparılmış, nəzəri və əməli nəticələr əldə edilmişdir. Əsərdə tarixin ekologiyaya inteqrasiyası Ə.R.Xələflinin bir sıra əsərləri ilə yanaşı, "Od" romanı əsasında da tədqiqata cəlb edilb.

Böyük qürur hissi ilə bildirmək istəyirəm ki, bu kitabın redaktoru bəndəniz Anar Məmmədov, rəyçiləri isə tarix üzrə fəlsəfə doktoru Yaqut Əmirova və fəlsəfə doktoru, yazıçı-publisist, görkəmli poliqrafçı alim Şəddat Cəfərovdur.

"ELUCA ATALININ YARADICILIĞINDA TƏBİƏT-İNSAN MÜNASİBƏTLƏRİ" adlanan və ekoloji maarifçilik xarakteri daşıyan növbəti monoqrafiya isə İsveçdə yaşayan görkəmli Azərbaycan yazıçısı, publisist Eluca Atalının yaradıcılığı əsasında qələmə alınıb. Monoqrafiyada E.Atalının indiyədək dövri nəşrlərdə və çap olunmuş kitablarında yer alan hekayə, pyes, povest, roman, Ocaq yönümdə yazdığı esseləri, bədii-fəlsəfi etüdləri tədqiqata cəlb edilmiş, ekoloji baxımdan qiymətləndirilmiş, nəzəri və əməli nəticələr əldə edilmişdir.

Kitabın redaktoru Təranə xanım Musayeva, rəyçisi isə əziz həmkarımız, Bakı Dövlət Universitetinin Ekologiya və Torpaqşünaslıq fakültəsinin dosenti, fəlsəfə doktoru Azər Cəfərovdur.

Etiraf edim ki, hər üç kitabı böyük sevgi və minnətdarlıqla qəbul elədim. Həm də ona görə ki, hər üç kitabın müəllifi Yusif Dirili mənə qəlbən və ruhən doğma insandır. Belə ki, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Dirili Qurbani Məclisinin qurucusu və sədri, 70-dən çox elmi əsər, 11 kitab müəllifi (artıq 14 oldu) Yusif Dirilini təxminən 2001-ci ildən tanıyıram və o gündən bu günə kimi onun elmi və ədəbi fəaliyyti göz önümdədir. Hər ikimiz görkəmli alim, biologiya elmləri doktoru, professor, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının və Beynəlxalq Ekoenerji Akademiyasının akademiki Qara Mustafayev məktəbinin yetirmələri sayılırıq. Y.Dirili ilə səmimi yaranan, sonradan isə sıx dostluğa çevrilən münasibətimiz də elə o vaxtdan formalaşmışdı. İkimiz də qələm əhli olduğumuzdan söhbətrimiz də şirin alınırdı. Vaxtilə Təhsil Nazirliyinin nəzdində Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzində şöbə müdiri vəzifələrində çalışan, məktəbdənkənar müəssisələr üçün bir neçə nümunəvi tədris proqramlarının və metodik tövsiyələrin müəllifi olan Y.Dirili elə o vaxtdan ölkəmizdə ətraf mühitin qorunması tarixi və respublikanın ekoloji problemləri ilə bağlı çox maraqlı bir mövzu üzərində çalışır. Elə 2018-ci ildə rəhmətlik Qara müəlimlə birgə üçümüzün qələmindən çıxan və ekologiyanın qədim tarixinə ayna tutan "Ekologiyadan əvvəlki ekologiya" monoqrafiyası elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Şükürlər olsun ki, Y.Dirilinin əziyyəti yerdə qalmadı, onun təqdim etdiyi dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verdi və müəllif, tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almağa layiq bilindi. Odur ki, əziz dostumun qələmindən çıxan hər bir əsər ekoloji maarifçilik baxımından olduqca faydalı və gərəklidir.

Onu da deyim ki, hər üç kitab geniş oxucu auditoryası üçün nəzərdə tutulsa da, əlavə vəsait kimi filologiya və təbiət elmləri üzrə ixtisaslaşmış mütəxəssislər, tədqiqatçılar və tələbələr də ondan yararlana bilərlər. Ümidvaraıq ki, müəllifin elmi tədqiqatçılıq yönümündə, oxunaqlı şəkildə qələmə aldığı bu əsərlər oxucuların marağına səbəb olacaqdır. Ardı gəlsin.

**2026**